***Məktəb qəhrəmanları ilə tanınır***



**Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi**



- Mübariz İbrahimov 2010-cu ilin aprel ayından Tərtər rayonunun "N" saylı hərbi hissəsində xidmət edib.

- 2010-cu il iyunun 18-dən 19-na keçən gecə Talış-Borsunlu istiqamətində Ermənistan silahlı qüvvələrinin hücumunu dəf edərkən düşməni ağır itkilərə məruz qoyaraq qəhrəmancasına həlak olub.

- 2010-cu il iyulun 22-də ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova Azərbaycanın Milli Qəhrəmanı adı verilib (ölümündən sonra).

- Mübariz İbrahimov 1994-2005- ci illərdə şəhid Malik Piriyev adına Əliabad kənd tam orta məktəbində təhsil alıb. Ən çox sevdiyi dərslər ana dili, ədəbiyyat, tarix, coğrafiya, biologiya, riyaziyyat, fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı olub.

- "Azərbaycanın Milli Qəhrəmanı M.A.İbrahimovun xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, 2010-cu ilin

sentyabrından Nazirlər Kabinetinin qərarı ilə Biləsuvar rayon lisey-məktəb kompleksi Milli Qəhrəman Mübariz İbrahimovun adını daşıyır.



- ✓ Təhsil müəssisəsinin 2011-2012-ci tədris ili üzrə 23 məzunu, 2013-2014-cü tədris ili üzrə isə 40 məzunu ali təhsil müəssisələrinə qəbul olunub.
- ✓ Tədris illərinə müvafiq olaraq lisey üzrə şagirdlərin orta göstəricisi 518 və 565 bal olub.
- ✓ Təhsil müəssisəsinin iki məzunu Prezident təqaüdünə layiq görülüb.



Atama və anama məktub.

Canım atam və anam məndən sarı darıxmayın inşallah cənnətdə görüşərəyiq. mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür, Allaha xaiz bunu eləməliyəm. Ən azından ürəyim sərinlik tapır. İnşallah şəhid olana kimi bu şərəfsizlərin ~~üstünə~~ gedəcəm. Şəhid olsam ağlamayın əksinə sevinin ki o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu eləməliyəm. Allah böyükdü, Vətən sağ olsun. Oğlunuz Mübariz.

Haqqınızı halal edin.

İbrahimov Mübariz